**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Rafiq Abbasovun 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Süleymanov Qəsəd Əsədxan oğlunun 26 dekabr 2009-cu il tarixli 125 saylı müraciətinin araşdırılmasına dair**

# R Ə Y İ

Bakı şəhəri 28 dekabr 2009-cu il, saat 12.00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi üzrə Udulu bələdiyyəsi üzvlüyünə namizəd Süleymanov Qəsəd Əsədxan oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, müvafiq seçki dairəsinin 28,29 və 30 saylı seçki məntəqələrində seçki saxtakarlıqlarına yol verildiyini bildirmiş və bununla bağlı müvafiq tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Vətəndaşın müraciətində göstərdiyi mülahizələri nəzərə alaraq, seçki qanunvericiliyinin tələblərinə əməl olunmasının təmin edilməsi və müvafiq tədbirlərin görülməsi üçün müraciət aidiyyəti üzrə 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1-ci maddəsinə əsasən dairə seçki komissiyaları müvafiq seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının riayət olunmasına nəzarət edir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Bələdiyyə seçkiləri müvafiq seçki dairəsinin ərazisində keçirildiyindən və həmin prosesə dairə seçki komisiyaları rəhbərlik etdiyindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112, 112-1, 112-1.5.4-cü və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi

və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.5.1-ci bəndini rəhbər tutmaqla **r ə y ə  g ə l d i m:**

1. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixli 125 saylı müraciət aidiyyəti üzrə 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi dairə seçki komissiyasına göndərilməlidir.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü                                   Rafiq Abbasov